Uşaqlar üçün Müqəddəs Kitab
təqdim edir



# Təqibçidən Təlimçiyə

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Janie Forest

Uyğunlaşdıran: Ruth Klassen

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2017 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.



Allah
erkən imanlı
cəmiyyətində
Öz xalqı

vasitəsilə böyük
işlər etdi.


Filip adlı bir şəxs çoxlu adam olan şəhərdə İsa
haqqında danışmaqla məşğul idi.  Ancaq Allah onu səhralığa göndərdi.
Nə üçün?


Allah səhralıqda bir səyahətçinin, Həbəşli bir hərəmağasının olduğunu bilirdi.  O, evə gedirdi və xüsusi bir Kitab oxuyurdu. Onun hansı
kitab olduğunu tapa bilərsən?

Filip Allaha itaət edəndə, Allah onu heç nə başa düşmədən Allahın Sözünü oxuyan hökmdarın düz yanına apardı. O, Filipi ona qoşulmağa dəvət etdi.



Hökmdar Filipdən soruşdu: “Bunun mənası nədir?” Araba səhralıq yolla yırğalana-yırğalana getdikcə, Filip ağzını acid və Yazılardan başlayaraq ona İsa haqqında təbliğ etdi.





Afrikalı hökmdar qısa müddət sonra Müqəddəs Kitabın müjdəsinə, İsa Məsihin Allahın Oğlu olduğuna iman etdi.

Onda Filip dedi: “Əgər bütün qəlbinlə iman edirsənsə, mümkündür”. Hərəmağası cavab verdi: “İsa Məsihin Allahın Oğlu olduğuna inanıram”. Filip onu suyun yanına apardı və vəftiz etdi.





Sudan çıxanda Rəbbin Ruhu Filipi götürüb oradan uzaqlaşdırdı. Filipi bir daha görməyən hərəmağası sevinə-sevinə yoluna davam etdi.



Beləliklə, Afrikalı hökmdar bir daha onu görmədi.  O, sevinərək Həbəşistana qayıtdı!

Amma bəzi adamlar məsihçilərə nifrət edirdilər.  Filipin dostlarından biri olan Stefan İsa haqqında danışmasını istəməyən qəzəbli insanlar tərəfindən öldürüldü.



Məsihçilərə qarşı hədə-qorxular
və qatilliklə nəfəs alan Şaul baş
kahinin yanına getdi və İsanın
ardınca gedən kişi və qadınları
zindana atmaq üçün ona
səlahiyyət verən
məktublar
aldı.





Yazıq Tarsuslu Şaul!
O heç bilmirdi ki,
Allahın xalqını
incidəndə, əslində
o, Rəbb İsanın
Özünü incidirdi.
Allah Şaulu
dayandırmalı idi.
Amma necə?

Allah Şaulu “Həbs etdi!”
Şaul Dəməşq şəhərinə
gedərkən göydən gələn
parlaq işıq onun
ətrafında parladı.
Şaul yerə yıxıldı.
Sonra o, bir
Səs eşitdi.





Şaul ucadan dedi: “Ey Ağam,
Sən kimsən?”
“Mən sənin təqib
etdiyin İsayam”.
Titrəyərək
və heyrət içində Şaul soruşdu:
“Ağa, nə etməyimi istəyirsən?”
Rəbb ona dedi: “Qalx ayağa,
şəhərə get və nə etmək
lazımdırsa, sənə deyiləcək”.

Şaulla olan adamlar
da Səsi eşitdilər,
ancaq heç kimi
görmədilər.
Şaul yerdən
qalxdı, o, kor
olmuşdu!
Şaulla olan
adamlar onu
Dəməşqə
apardılar.



Şəhərdə Şaul üç gün görmədi, o, nə yedi, nə də içdi. Bəlkə o, vaxtını Dəməşq yolunda rastlaşdığı Rəbb İsaya dua edərək keçirirdi.



Allah hər şeyi planlaşdırmışdı. Dəməşqdə Xananya adlı bir şagird var idi. Rəbb onu Şaula kömək etmək üçün göndərdi. Xananya qorxdu.



Ancaq Allaha itaət etdi.  O, əllərini Şaulun üzərinə qoyanda, onun gözləri açıldı və Şaul Allahın Müqəddəs Ruhu ilə doldu.





Şaul vəftiz oldu.
Sonra yemək yedi. O,
yemək yeyəndən sonra
qüvvətləndi. Şaula
güc lazım idi. Onun
görəcəyi mühüm
işlər var idi.

Şaul dərhal Məsihin Allahın Oğlu olduğunu Sinaqoqda təbliğ etdi. Orada olanların hamısı təəccübləndilər və dedilər:



“Məsihçiləri məhv edən bu deyilmi?” Bəziləri Şaulu öldürmək üçün sui-qəsd fikirləşdilər.





Şaulun yeni düşmənləri, əgər Şaul şəhər qapılarından şəhəri tərk etməyə çalışarsa, onu öldürmək üçün pusqu qurmuşdular. Ancaq onun yeni dostları, məsihçilər gecə ...



... ilə onu böyük bir səbətin içərisində şəhər divarlarından aşağı endirdilər. Ondan sonra məsihçiləri təqib edən Şaul yeni Ağasının, Rəbb İsa Məsihin sadiq ardıcılı kimi yaşadı.

# Təqibçidən Təlimçiyə

Allahın Sözü, Müqəddəs Kitabdan olan bir hekayədir

Həvarilərin İşləri 8-9

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir.  Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi!  Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət
olduğuna inanırsansa, onda bunu Allaha de:
Əziz İsa, mən inanıram ki, Sən Allahsan və
mənim günahlarıma görə ölmək üçün insan oldun
və indi Sən yenidən yaşayırsan.  Xahiş edirəm,
həyatıma gəl və mənim günahlarımı bağışla ki,
mən indi yeni həyata malik ola və bir gün Səninlə
birlikdə əbədiyyən yaşaya bilim.  Sənə itaət
etməkdə və Sənin övladın kimi yaşamaqda mənə
kömək et.  Amin.

**Müqəddəs Kitabı oxu və hər gün**
**Allahla danış!   Yəhya 3:16**